*Zəki Bayram*

# *Sən nə zaman böyüyüb çatdın şəhid yaşına?*

***Füzuli şəhəri uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olmuş əmim nəvəsi Xəzər Bayramovun unudulmaz xatirəsinə***



*Dünən torpağa verdik Xəzər kimi oğulu;*
*Tək adından canımda təlatümlər doğulur,*
*Doğmaların, dostların yoxluğunda boğulur...*
*Anan salar mehrini soyuq məzar daşına;*
*Sən nə zaman böyüyüb çatdın şəhid yaşına?*

*Bir nəslin budağından qopdu yaşıl bir yarpaq,*
*Ruhun bu gündən belə başımızda al bayraq.*
*Ana tək qucağını açdı sənə bu torpaq,*
*Bizə qaldı əmanət başladığın şanlı yol,*
*Uğrunda öldüyün bu torpaqda rahat ol.*

*Şəhidlik mağarını anan çaşıb toy sanar,*
*Kimisə öz gəlini, səni təzə bəy sanar.*
*Bir qız da gizli-gizli yollarına boylanar;*
*Ürəyində oxşayar ilk arzu, muradını,*
*Dodağında pıçıldar öz-özünə adını.*

*Qarabağ qurtulacaq quzğunlar caynağından,*
*Qartal səsi gələcək qartallar oylağından.*
*Sən öz canından keçdin, qardaşın ayağından;*
*Qalanlara yar olsun anaların duası,*
*Silinsin qəlbimizdən məğlubiyyət havası.*

*Rahat uyu, şəhidim, gözün dalda qalmasın,*
*Bacıların sızlayıb saçlarını yolmasın,*
*El-obanın içində atan sınıq olmasın;*
*Bu Millətin oğludur bütün şəhid oğullar,*
*Şəhidliyə and içən neçə igid oğul var.*